*Türk Dünyası İncelemeleri Dergisi / Journal of Turkish World Studies,*
*Cilt: IX, Sayı 1, Sayfa: 131-136, İZMİR 2009.*

# "ORTA ƏSR ŞƏMKIR ŞƏHƏRININ IŞIQLANDIRMA VASTƏLƏRINƏ DAIR"

## On the Question of Illumination in the Medieval Town of Shamkir

***Namıq HÜSEYNLI*** *

**Özet**

Azerbaycan'ın Şemkir rayonunda, Muhtariye köyünün kuzeyinde, Muhtariye-Keçili köyleri arasında ve Şemkirçay'ın sol sahilinde Ortaçağ Şemkir şehrinin kalıntıları bulunmaktadır. Söz konusu alanda son yıllarda yapılan düzenli kazılar sonucunda, ekseriyeti 8-13. yüzyıllara ait olduğu tespit edilen pek çok seramik buluntu ele geçirilmiştir. Ev kullanım seramikleri, yapılış tekniklerine göre bu seramikler, basit (sırsız) ve sırlı seramikler olarak 2 grupta incelenmektedir.

Eski Şemkir'deki bilimsel kazılar esnasında bugüne kadar 64 adet seramik kandil ele geçirilmiştir. Bunların Beylegan'da ve özellikle de Gence'de bulunan örneklere benzer oldukları görülmektedir.

Bu makalede, aydınlatma aracı olarak kullanılan bu seramik kandiller üzerinde durulmaktadır.

***Anahtar Kelimeler:*** Azerbaycan, Eski Şemkir, Seramik Kandiller

**Abstract**

The remains of the medieval town of Shamkir are situated in Shamkir region of Azerbaijan Republic on the north from Mukhtariyye settlement, between Mukhtariyye and Kechili villages, on the left coast of the Shamkirchay river.

As a result of regular and systematic excavations the remains of material culture dating back to 8-13$^{th}$ centuries were discovered, the main part of which was ceramics.

According to the technology of production the given ceramics can be divided into 2 groups: Simple and glazed ceramics. As to the type of usage, there are household, kitchen, table ceramics and etc.

We tried to consider ceramic products (vessels) used for illumination, that is lamps in this article. It should be noted that 64 lamps were found during the excavations. As it was found out the fuel mixture for the most lamps was crude oil. However there was a group of lamps where grease (oil) was used for the same purpose.

As it was ascertained the lamps found in Shamkir are identical to those found in Beylagan and especially in Gandja and enter into the circle of Arran ceramics.

***Key Words:*** Azerbaijan, the medieval town of Shamkir, Ceramic Lamps

Orta əsr Şəmkir şəhərinin xarabalıqları Azərbaycan Respublikasının Şəmkir rayonunun Muxtariyyə kəndinin quzeyində, Muxtariyyə və Keçili kəndləri arasında, Şəmkirçayın sol sahilində yerləşir. Şəhərin xarabalıqları onun plan qurluşunun kvadrata yaxın formada olduğunu müəyyənləşdirməyə imkan verir. Şəhər şimaldan müasir müsəlman qəbirstanlığı, şərqdən Şəmkir çayı, cənub istiqamətdən müasir yaşayış məntəqəsi və qərb tərəfdən isə əkin sahələri ilə sərhədlənir.

2006-cı ildə Azərbaycan MEA Arxeologiya və Etnoqrafiya İnstitutunun ekspedisiyası orta əsr Şəmkir şəhərinin xarabalıqları şəhristan sahəsində yoxlama qazıntı ilə mədəni təbəqənin xarakteri öyrənilmiş, 2007-2009- cu illərdə isə Azərbaycan MEA Arxeologiya və Etnoqrafiya İnstitutu,

* *Azerbaycan Milli Elimler Akademiyası, Arxeologiya və Etnoqrafiya İnstitutu (Orta əsrlər arxeologiyası şöbəsi/ kiçik elmi işçi)*

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Regionların İnkişafı İctimai Birliyinin birgə layihəsi üzrə Narınqala və Şəhristan sahəsində geniş miqyaslı arxeoloji qazıntılar aparılmışdır[1].

Arxeoloji qazıntılar nəticəsində VIII-XIII əsrlərə aid külli miqdarda maddi-mədəniyyət nümunələri tapılmışdır ki, onların böyük əksəriyyətini saxsı məmulatı təşkil edir.

Hazırlanma texnologiyasına görə saxsı qablar əsasən iki böyük bölməyə bölünürlər. Şirsiz və şirli saxsı qablar.

Şirsiz saxsı qabların əksəriyyətinin gili təmiz olub dulus çarxında hazırlanmış, sabit hərarət rejimində bişirilmiş və formasının gözəlliyi ilə fərqlənirlər. Saxsı qabları təyinatına görə aşağıdakı kimi qruplaşdırmaq olar.

a) Təsərrüfat təyinatlı qablar
b) Mətbəx qabları
c) Süfrə qabları
d) Işıqlandırma vastələri
e) Xüsusi təyinatlı qablar

Hazırki məqalədə məqsəd orta əsr Şəmkir şəhər yerindən əldə olunmuş işıqlandırma vastələrini araşdırmaqdan ibarətdir. Arxeoloji materiallar işıqlandırma vastəsi olaraq saxsı piydan və çıraqlardan istifadə olunduğunu göstərir. Ümumilikdə Şəmkir şəhər yerindən arxeoloji qazıntılar zamanı tapılan işıqlandırma vastələrinin sayı 64 ədəddir. Onlardan 5 ədədi şirli piydan, 7 ədədi şirsiz çıraq, 52 ədədi isə şirli çıraqlardan ibarətdir.

Piydanlar. Adından məlum olduğu kimi bu işıqlandırma vastələrində neft deyil, bir qayda olaraq piy yandırılırdı. Lakin onu da qeyd etmək olar ki, çıraqlara nisbətən piydanlar arxeoloji qazıntılar zamanı daha az tapılmışdır. Piydanlar şirlidirlər və iki tiplə təmsil olunurlar.

I tip piydanlar iki ədəddir. Onların diskvari alçaq oturacağı, enli bikonik gövdəsi, içəriyə qatlanmış enli ağzı vardır. Tutacaqları kiçik ölçüdə olub üçbucaq formasındadır. Tutacağın əks istiqamətində isə ağzının kənarı sıxılaraq piltə qoymaq üçün novça halına salınmışdır. Hər iki piydanın iç tərəfi açıq sarı şirlə şirlənmişdir. Onlardan birinin oturacağının diametri 6 sm, digərinin ki, isə 7 sm, ağızlarının diametri isə 5 sm-dir (şək. 1, 3).

II tip piydanın yarpaqşəkilli gövdəsi, üçbucaq formasında tutacaqları ilə birinci tip piydanlardan fərqlənirlər. Ağız hissəsi novçalıdır. Piydanın içəri tərəfinə yaşıl rəngdə şir çəkilmişdir (şək. 2).

Işıqlandırma vastələri kimi orta əsrlərdə Azərbaycanda piydanlar məhdud şəkildə istifadə olunmuşdur. Oxşar piydan nümunələri arxeoloji qazıntılar zamanı Şamaxıdan[2], Sərkərtəpədən[3] məlumdur. Piydanlarda yanacaq kimi heyvan piyindən istifadə edirdilər. Orta əsr mənbələrindən birində Bakı şəhərindən bəhs olunarkən qeyd edilir ki, "şəhərin yaxınlığında məskun olunmuş ada var və buradan su itlərinin ovuna gedirlər. Su itlərinin dərisini soyur və piydanlarda (istifadə edilən) piylərini əridirdilər[4].

Çıraqlar. Azərbaycanın digər orta əsr şəhərlərində olduğu kimi Şəmkirdə də əhali işıqlandırma vastələri olaraq çıraqlardan geniş istifadə etmişlər. Şəmkir şəhər yerindən çıraqların kütləvi tapılması bunu əyani sübut edir. Tapılan çıraqların əksəriyyətinin gili təmiz olub dulus çarxında hazırlanmış, saxsısı sıx, rəngi açıq çəhrayıdır. Onlar şirsiz və şirli olmaqla iki bölməyə ayrılırlar. Şirli saxsı çıraqlar daha çox aşkar olunmuşdur. Çıraqlar hazırlanma texnologiyalarına, şirlənmə üslubuna və forma etibarı ilə bir-birindən kəskin surətdə fərqlənmirlər.

---

1 Dostiyev T.M. 2006-2007- ci illərdə Şəmkir şəhər yerində aparılmış arxeoloji tədqiqatlar. // Şəmkir: **arxeoloji irsi, tarixi və memarlığı.** Bakı. 2008, s. 32; Достиев Т.М. Раскопки цитадели средневекового Шамкира. // **Кавказ: Археология и Этнология. Международная научная конференция. Материалы.** Баку 2009, с. 251

2 Джидди Г. **Средневековый город Шемаха IX-XVII вв.** Баку. 1991, табл VIII 1-2, с. 59

3 Dostiyev. T. Sərkərtəpə orta əsr mədəni təbəqəsi. // **Tarix və onun problemləri.** Bakı 1997, № 1, tablo I, şək. 8, s. 195

4 Абд ар Рашид Бакуви. **Китаб Талхис ал-асар ва аджаиб ал- малик ал Каххар**. Перевод и комментарии З.М. Бунятова. Москва 1971, с. 89

Şirsiz çıraqları tutumlarına görə qruplara, forma etibarı ilə tiplərə ayırmaq olar. Tutumunun müxtəlifliyinə görə də iki qrupa bölmək olar ki, bunlar da iri və kiçik ölçüdə olan şirsiz çıraqlardır.

I qrupa iri tutumlu şirsiz çıraqlar daxildir. Onalr iki tiplə təmsil olunub. Birinci tip şirsiz çıraqlar bir ədədlə təmsil olunaraq, forma etibarı ilə digərlərinə nisbətən fərqlidir. Bu çırağın dəyirmi-qabarıq oturacağı, bikonik gövdəsi, dar, hündür boğazı və kənarı bayıra meyilli ağzı vardır. Boğaz hissədə iki ədəd eninə cızma xətlə naxış salınmışdır. Çubuqvari qulpunun yuxarı ucu boğazının ortasına, aşağı ucu isə gövdəsinə birləşdirilmişdir. Iri boruşəkilli lüləyi sınıq olub, üzəri hisslə örtülmüşdür. Qulpunun aşağı ucuna barmaqla batıq bəzək salınmışdır. Çıraq dulus çarxında hazırlanmış və üzərində şüyrələnmə izləri var. Diametri oturacağında 8 sm, gövdəsində 12 sm, boğazında 3 sm olub, hündürlüyü isə 12 sm-dir (şək. 4). Şəmkir şəhər yerinin arxeoloji qazıntılarından tapılmış bu çıraq daha çox orta əsr Şabran şəhərindən məlum olan iri həcmli şirsiz çıraqlarla oxşarlıq təşkil edirlər.

Ikinci tip iri tutumlu şirsiz çıraqların sayı iki ədəddir. Onların diskvari alçaq oturacağı, bikonik gövdəsi, enli boğazı vardır. Yanlara doğru əyilən ağzının kənarı basılaraq enli hissə yaratmışdır. Bu çıraqlar həmçinin boğaz hissələrinin formasına görə fərqlidirlər. Arxeoloji qazıntılar zamanı XI-XII əsr təbəqəsindən aşkarlanmış bu çıraqların boğazı iki hissədən ibarət olub, aşağı hissədən yuxarıya doğru daralan, yuxarı hissə isə silindirik formadadır. Çubuqvari enli qulpunun yuxarı ucu ağzının kənarına, aşağı ucu isə gövdəyə birləşdirilmişdir. Iri həcmli bu çıraqların boğaz hissəsinə 7-8 ədəd üfiqi istiqamətdə, həmçinin boruşəkilli lüləyinin üst hissəsinə uzununa 6 ədəd cızma xətlə naxış salınmışdır. Çıraqların oturacağının diametri 6 sm, gövdə hissədə 10 sm, boğazında isə 4-4,5 sm olub, hündürlükləri 9 sm-ə bərabərdirlər. Çıraqlar sabit hərarət rejimində bişirilmiş, saxsıları sıxdır. Çıraqlardan birinin boğaz və lülək hissəsi hisslə örtülmüşdür (şək. 5,6).

II qrup çıraqlar həcmcə kiçik ölçülü çıraqlardırlar. Üç tiplə təmsil olunan bu çıraqlar arasında əl ilə hazırlanmış çıraqlara rastlanmamışdır.

Birinci tip çıraq fraqmenti bir nüsxədir. Onlar alçaq diskvari oturacağa, bir qədər dəyirmi gövdəyə və boruşəkilli lüləyə malikdir. Çırağın boğaz hissəsi sınıq haldadır. Lentşəkilli qulpunun aşağı ucu gövdəyə, yuxarı ucu isə görünür ağzının kənarına yapışdırılmışdır. Boruşəkilli lüləyinin uc hissəsi düz formada olub, üst hissəsində 2 sm diametrdə deşik açılmışdır. Saxsısının rəngi açıq çəhrayı çalardadır. Çıraq sabit hərarət rejimində bişirilmiş, gilinin tərkibində qarışığı yoxdur. Oxşar çıraq həmçinin Bakı[5], şəhərinin arxeoloji qazıntılarından da məlumdur (şək. 7).

Ikinci tip çıraqların gövdə hissəsi isə az dərəcədə konusvari formada olub, dar, alçaq oturacağı, çox da uzun olmayan boğazı və boruşəkilli lüləyi vardır. Enli lentşəkilli, yarımdairəvi qulpunun üzərinə şırım çəkilmişdir. Qulpunun yuxarı ucu ağzının kənarına, aşağı ucu isə gövdə hissəyə birləşdirilmişdir (şək. 8).

Digər kiçik həcmli şisiz saxsı çıraqların sonuncu tipi isə diskşəkilli oturacağı, bikonik gövdəsi, yuxarıya doğru uzanan boğazı vardır. Boruşəkilli lüləyinin ucu üçbucaq formasında deşiklə tamamlanır. Boğaz hissə digər çıraqlara nibətən gendir və ağzının kənarı düzdür. Qulpunun yuxarı ucu ağzının kənarına, aşağı ucu isə gövdəyə birləşdirilmişdir. Əvvəlki tip çıraqlarda da olduğu kimi bu çırağın da enli lentşəkilli qulpunun ortası ilə bir ədəd uzununa şırım çəkilmişdir. Gilinin rəngi açıq sarı rəngə çalır (şək. 9). Oxşar şirsiz çıraq nümunəsi həmçinin Örənqala[6], Şamaxı[7] və Bərdə[8] qazıntılarından da məlumdur.

Yuxarıda qeyd olunduğu kimi, orta əsr Şəmkir şəhər yerindən tapılmış çıraqlar arasında şirli çıraqlar tam üstünlük təşkil edir.Onları forma etibarı ilə dörd tipə ayırmaq olar. IX-X əsrlər üçün xarakterik olan və çıraqların istehsalında keçid dövrünü əks etdirən I tipi, piydan çıraqlar adlandırmaq olar. Onların sayı üç ədəddir. Bir qayda olaraq piydan-çıraqların alçaq diskvari oturacağı, bikonik gövdəsi

---

5 Ахмедов Р.Дж. **Керамика Баку IX-XVII вв.** Баку 1992. табло. XII. рис. 5, с. 53
6 Əhmədov Q. **Örənqala.** Bakı 1962, s. 77
7 Джидди Г. **Средневековый город Шемаха IX-XVII вв.** Баку 1991, табл VIII 1-2, с. 59
8 Nuriyev A; Babayev Ə. **Bərdə şəhərinin tarixi-arxeoloji oçerki (antik və orta əsrlər).** Bakı 2001, tablo. XII. şək. 5, s. 59

və enli alçaq boğaz hissəsi vardır. Boruşəkilli lüləyinin uc hissəsində üçbucaq formasında olan deşik vardır. Lentşəkilli, yarımdairəvi qulpunun yuxarı ucu ağzının kənarına, aşağı ucu isə gövdəyə birləşdirilmişdir. Qulpunun üzərində bir ədəd şırım salınmışdır. Piydan çıraqların ikisinin içərisi açıq yaşıl şirlə, birinin isə açıq sarı şirlə şirlənmişdir (şək. 10).

Piydan çıraqlar sonradan şırli çıraqlarla əvəz olunublar. Bunu onların tipoloji təsnifatı əsasında da ayırd etmək olar. Çıraqlarda boğaz hissə daralır və hündürləşir, qulplarının bir azda təkmilləşdirilməsi baş verir.

Elmi ədəbiyyatlarda da qeyd olunduğu kimi erkən dövrlər üçün xarakterik olan sadə, enli bikonik gövdəli, qısa lüləkli, gen boğazlı çıraqlar tədricən aradan çıxır, onların yerini daha mükəmməl hazırlanmış girdə və şarşəkilli gövdəsi, uzun lüləyi, yuxarıya doğru uzanan boğazları, düzgün istiqamətləndirilmiş qulpları olan çıraqlar tutur. Bu vəziyyət Örənqala arxeoloji qazıntılarından da məlumdur. Burada IX-XI əsrlərə aid çıraqlar əgər həcmcə böyük idilərsə, sonrakı əsr çıraqları getdikcə kiçik ölçülü çıraqlarla əvəz olunur və təkmilləşdirilir.

XI-XII əsr mədəni təbəqəsindən tapılan II tip şirli çıraqların alçaq diskvari oturacaqları, enli bikonik gövdəsi, alçaq enli boğazları və lentşəkilli yarımdairəvi qulpları ilə müşahidə olunurlar. Qulplarının üzəri isə bir, bəzən də iki ədəd şırımlarla bəzədilirdi. Bu tip şirli çıraqlardan yalnız birinin içəri tərəfi yaşıl rəngli şirlə şirlənmişdir. Bayır tərəfi isə hisslə örtülmüşdür (şək. 11). Oxşar digər çıraqların isə adətən içərisi tünd yaşıl, bayır tərəfində isə qulp və gövdə hissələri seyrək halda yaşıl şirlə şirlənmişlər (şək.12).

III tip şirli çıraqlar isə Şəmkir şəhər yerindən arxeoloji qazıntılar zamanı daha çox tapılmışdır. Bu tip çıraqların gövdəsinin forması daha az bikonik olub, diskvari alçaq oturacağı, boruşəkilli lüləyi və az dərəcədə yuxarıya doğru daralan boğaz hissələri vardır. Digər çıraqlarda olduğu kimi bu çıraqların da lentşəkilli qulpları və eyni ilə oxşar şırımlarla naxışlanması müşahidə olunur. Çıraqların saxsısının rəngi isə fərqlidirlər. Bir çox hallarda çıraqların saxsısının rəngi boz və açıq çəhrayı rəngdə olurlar. Çıraqların hamısı sabit hərarət rejimində bişirilmiş, saxsısı sıxdır (şək. 13).

Beləliklə, IX-X əsr dövrləri üçün xarakterik olan çıraqlar tədricən sıradan çıxırlar, onların yerini daha mükəmməl hazırlanmış girdə və ya şarşəkilli formaya malik, uzunsov lüləkli çıraqlar tutur.

Şəmkir şəhər xarabalıqları sahəsindən aşkarlanmış belə çıraqlar az da olsa fərqli olub, sayca beş ədəddir. Diskşəkilli alçaq oturacaqları, hündür olmayan geniş boğazları və dairəvi gövdələri vardır. Oturacaqlarının diametri 5 sm, gövdəsində 7 sm, boğazlarının diametri isə 6 sm-dir.

IV tipi təşkil edən çıraqlar dar gövdəyə, lentşəkilli yarımdairəvi qulpları, nisbətən dar boqazları, boruşəkilli, uzun lülələrinin çıxıntısı üçbucaq formasındadır. Bu tip çıraqların boğaz hissəsi qısa olub, ağız hissəyə doğru daralır (şək. 14-15). Lentşəkilli qulplarının yuxarı hissəsi ağzının kənarına, aşağı hissəsi isə gövdəyə birləşdirilirdi. Bu tip çıraqların üzərinə bir bəzən isə iki ədəd şaquli istiqamətdə şırımlar çəkilirdi.

V tip çıraqların fərqli xüsusiyyəti isə onun iki lüləyinin olmasıdır. Hələlik bir nüsxə ilə təmsil olunur. Lakin boruşəkilli lüləyinin biri sınıq haldadır. Çırağın içərisi yaşıl şirlə şirlənmişdir. Lüləyinin üzəri də yaşıl şirlə şirlənmişdir (şək. 16). Oxşar iki lüləli çıraq Torpaqqala orta əsr yaşayış yerindən 1974-cü illərdə aparılmış arxeoloji qazıntılar zamanı tapılmışdır. Bu çırağın dairəvi enli ağzı, lentşəkilli qulpu və yastı bikonik gövdəsi və alçaq diskşəkilli oturacağı vardır. Boruşəkilli formada olan hər iki lüləyi salamat qalmış, uc hissələri üçbucaq deşiklə tamamlanır[9]. Torpaqqala orta əsr yaşayış yerindən tapılmış iki lüləli çırağın gilinin rəngi isə qonur rəngdə olub, qulpunun yuxarı ucu ağzının kənarına, aşağı ucu isə gövdə hissəyə birləşdirilmişdir. Digər çıraqlara nisbətən bu çırağın ağız hissəsi qıf formasındadır. Ağzının kənarı isə bayıra tərəf meyillidir.

---

9 Vahidov R.M, Quliyev N.M. Şəmkir arxeoloji ekspedisiyası Torpaqqala Tovuz rayonu dəstəsinin 1974- cü il hesabatı. **Azərbaycan MEA AEİÇTŞA,** H-133, s. 26, tablo. XIV şək. 2

Həmçinin iki lüləli çıraqlara Azərbaycanın digər orta əsr şəhərləri Beyləqan[10] və Qədim Gəncə[11] qazıntılarından da aşkar olunmuşdur. Iki lüləli çıraq Gəncə dövlət diyarşünaslıq tarix muzeyində sərgidə nümayiş olunmaqdadır. Arxeoloji qazıntılar zamanı Gəncədən tapılmış çırağın fərqli xüsusiyyəti isə lüləyinin yanaşı deyil, bir-birinə əks istiqamətdə yerləşməsidir[12]. Bir və ya bir neçə ədəd lülələri olan çıraqların nə məqsədlə işlədildiyi fikrinə gələn İsax Cəfərzadə bu tip çıraqların xüsusi bayram və toy mərasimlərində istifadə olunduğunu qeyd etmişdir. Yəni bu tip çıraqlar insanların məişət həyatında çılçıraq rolunu oynamışdır. Beləliklə, iki lüləli çıraqların həm də başlıca xüsusiyyətlərindən biri də görünür onların başqa çıraqlara nisbətən daha çox işıq saçmalarındadır (şək. 16).

Şəmkir şəhər yerində arxeoloji qazıntılar nəticəsində əldə olunan faktik materiallar orta əsrlərdə əhali tərəfindən işıqlandırma vastələri kimi çıraq və piydanlardan istifadə olunduğunu, çıraqların daha geniş yayıldığını göstərir.

Arxeoloji dəlillər çıraqlarda neft yandırılmasını təsdiqləyir. Belə ki, Şəmkir rayonu ərazisində, Kür çayı sahilində yerləşən orta əsr Muncuqlutəpə yaşayış yerində 1985-1988- ci illərdə aparılmış arxeoloji qazıntılar nəticəsində orijinal formalı çırağın içərisindən mazuta oxşar maddənin tapılması həmin ərazidə yaşayan əhalinin neftdən istifadə etmələrini əyani şəkildə sübut edir[13].

Ümumiyyətlə orta əsr Şəmkir şəhər xarabalıqlarından tapılmış şirsiz və şirli çıraqlar Beyləqan, xüsusilə Gəncə çıraqları ilə eyniyyət təşkil edərək sırf Arran keramikası dairəsinə daxil edilir. Faktik materiallar, statistik təhlil, şəhər sakinlərinin məişətində kiçik tutumlu şirli çıraqların üstün mövqe tutmasını müəyyənləşdirməyə imkan verir.

**Kaynaklar**


- 🕮 VAHIDOV, R.M., Quliyev, N.M. "Şəmkir arxeoloji ekspedisiyası Torpaqqala Tovuz rayonu dəstəsinin 1974- cü il hesabatı", **Azərbaycan MEA AEİÇTŞA,** H-133, s. 26, tablo. XIV şək. 2.
- 🕮 -DOSTIYEV T.M., "2006-2007- ci illərdə Şəmkir şəhər yerində aparılmış arxeoloji tədqiqatlar", **Şəmkir: arxeoloji irsi, tarixi və memarlığı,** Bakı, 2008, s. 32.
- 🕮 -DOSTIYEV. T., "Sərkərtəpə orta əsr mədəni təbəqəsi", **Tarix və onun problemləri,** Bakı,. 1997, № 1, tablo I, şək. 8, s. 195.
- 🕮 -ƏHMƏDOV, Q., **Azərbaycanın şirsiz saxsı məmulatı,** Bakı., 1959, tablo. XXII, şək. 7, s. 97.
- 🕮 -ƏHMƏDOV, Q., **Örənqala,** Bakı, 1962, tablo I, şək. 6, s. "Muncuqlutəpədə arxeoloji tədqiqatlar haqqında (1985-1988)", **Şəmkir arxeoloji irsi,** 77.
- 🕮 ƏLIYEV , Ə..Ə., tarixi və memarlığı. Birinci respublika elmi-praktik konfransı. Proqram və tezislər, Şəmkir,. 2007, s. 58.
- 🕮 NURIYEV, A; Babayev, Ə. **Bərdə şəhərinin tarixi-arxeoloji oçerki (antik və orta əsrlər),** Bakı., 2001, tablo. XII. şək. 5, s. 59..
- 🕮 Абд ар Рашид Бакуви. **Китаб Талхис ал-асар ва аджаиб ал- малик ал Каххар,**. Перевод и комментарии З.М. Бунятова, Москва, 1971, с. 89.
- 🕮 -АХМЕДОВ, Р.Дж., **Керамика Баку IX-XVII вв,** Баку, 1992. табло. XII. рис. 5, с. 53.
- 🕮 ДЖАФАРЗАДЕ, И.М., **Историко-археологический очерк старой Гянджи,** Баку. 1949, рис. 38, с. 77.
- 🕮 Г. Джидди, **Средневековый город Шемаха IX-XVII вв,** Баку, 1981, табл VIII 1-2, с. 59.


---

10 Əhmədov Q. **Azərbaycanın şirsiz saxsı məmulatı.** Bakı 1959, tablo. XXII, şək. 5, s. 97

11 Джафарзаде И.М. **Историко-археологический очерк старой Гянджи.** Баку 1949, рис. 38, с. 77

12 Yenə orada

13 Əliyev Ə.Ə. Muncuqlutəpədə arxeoloji tədqiqatlar haqqında (1985-1988). // Şəmkir arxeoloji irsi, tarixi və memarlığı. Birinci respublika elmi-praktik konfransı. Proqram və tezislər. Şəmkir, 2007, s. 58


1


2


3


4


5


6


7


8


9


10


11


12


13


14


15


16